# Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlığa əsaslanan əlaqələrin gələcək istiqamətləri müzakirə olunub

**Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti komissiyanın növbəti iclasında iştirak etmək üçün Serbiyada səfərdədir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan nümayəndə heyəti Serbiyanın paytaxtı Belqrad şəhərindəki "Taşmaydan" parkında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla anıb.

Səfər çərçivəsində Sahil Babayevlə Serbiyanın iqtisadiyyat naziri Rade Basta və nazir Novitsa Tonçev, daxili və xarici ticarət naziri Tomislav Momiroviç, ailə rifahı və demoqrafiya naziri Dariya Kisiç və əmək, məşğulluq, veteran və sosial məsələlər naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Serbiya tərəfindən həmsədri Nikola Selakoviç arasında görüşlər keçirilib.

Həmin görüşlər zamanı Azərbaycan və Serbiyanın dövlət başçılarının siyasi iradəsi və səyləri ilə iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artmaqda olduğu, ötən dövrdə imzalanan əməkdaşlıq sənədlərinin əlaqələrin yüksələn xətlə inkişafına xidmət etdiyi bildirilib.

Hökumətlərarası Komissiyanın növbəti 7-ci iclasının gündəliyi müzakirə olunub. Serbiyanın Qara dəniz sualtı elektrik və rəqəmsal qoşulma layihəsinə cəlb edilməsi, ikitərəfli və tranzit yük axınının artırılması, qarşılıqlı investisiyaların təşviqi və yeni layihələr əsasında əməkdaşlığın genişləndirilməsi məsələlərinə dair fikir mübadilələri aparılıb.

Kənd təsərrüfatı, nəqliyyat, əmək və sosial müdafiə, mədəniyyət, İKT, turizm, təhsil və s. sahələrdə əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunub, Ələt Azad İqtisadi Zonasının geniş imkanları barədə məlumat verilib, onun investorlar üçün mühüm əhəmiyyəti diqqətə çatdırılıb.

Ölkəmizdə aparılan sosial islahatlar, DOST təcrübəsi, dövlət sosial xidmətlərinin rəqəmsallaşdırılması sahəsində əldə edilən nailiyyətlər qeyd olunub, sosial sahədə əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Görüşlərdə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumunun həyata keçirilməsinə dair 2023-2024-cü illər üçün Tədbirlər Planı" və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Serbiya Respublikasının Ailə Rifahı və Demoqrafiya Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Hər iki sənəddə nazirliklər arasında müvafiq fəaliyyət sahələrində əməkdaşlıq istiqamətləri və təcrübə mübadilələrinin aparılması əksini tapıb.

---

Azərbaycan.- 2023.- 28 aprel.- S.13.